# Dünyaya mühüm mesaj - Yeni tarazlaşdırıcı qüvvə və ya "Orta güc"

**Azərbaycan, Türkiyə və Pakistan arasında getdikcə möhkəmlənən strateji, hərbi, diplomatik və iqtisadi müttəfiqlik Laçında bir daha öz təsdiqini tapdı.**



Üç ölkə arasında mövcud münasibətlər sadəcə siyasi və iqtisadi maraqlarla məhdudlaşmır. Burada ortaq milli kök, tarix, dil, mədəniyyət və din, eyni zamanda ideoloji yaxınlıq və strateji vizyonun uyğunluğu vacib rol oynayır. Pakistan Ermənistanı bu günə qədər müstəqil dövlət kimi tanımayan yeganə ölkədir və bu, Azərbaycanın ərazi bütövlüyünə olan prinsipial dəstəyin göstəricisidir. Türkiyə isə 44 günlük Vətən müharibəsi zamanı və sonrakı illərdə həm siyasi, həm iqtisadi sahələrdə Azərbaycanın əsas tərəfdaşı kimi çıxış edib. Ölkəmiz də hər zaman Türkiyə və Pakistanın yanında olub, onların milli maraqlarını dəstəkləyib. Bu mənada işğaldan azad edilmiş Şərqi Zəngəzurda üç qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.

28 May - Müstəqillik Günündə işğaldan azad edilmiş ərazilərdə inşa olunan Laçın Beynəlxalq Hava Limanının açılışı böyük siyasi, iqtisadi və strateji əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutan açılış mərasimi bir neçə aspektdən diqqət çəkir. Azərbaycanın ən yüksək hündürlükdə yerləşən hava limanı olan Laçın Beynəlxalq Hava Limanı regionun logistik, hərbi və turizm baxımından inkişafında mühüm rol oynayacaq. Laçın şəhərinə 30 km, Şuşaya 70 km, Kəlbəcərə 60 km məsafədə yerləşən bu hava limanı Qarabağ və Şərqi Zəngəzur bölgəsini beynəlxalq hava nəqliyyat şəbəkəsinə birləşdirəcək. Laçın Beynəlxalq Hava Limanı Qarabağ və Şərqi Zəngəzur bölgəsinin geosiyasi mərkəzinə çevriləcək. Liman Azərbaycanın nəqliyyat təhlükəsizliyi və müdafiə logistikası baxımından strateji mövqedə yerləşir. Hava limanının digər əhəmiyyəti isə Azərbaycanın yer aldığı Orta dəhlizdəki rolunu daha da artıracaq. Laçındakı açılış mərasimi Türkiyə-Azərbaycan-Pakistan ittifaqının çoxqütblü münasibətlər sistemində tarazlaşdırıcı qüvvə və ya "Orta güc" olduğunu təsdiq etdi.

Azərbaycan, Türkiyə və Pakistan "Qlobal Cənub" adlanan, inkişaf etməkdə olan ölkələr blokunda ortaq maraqları müdafiə edirlər. Bu




birlik Çin və Qərb arasındakı qlobal geosiyasi rəqabətdə balanslaşdırıcı diplomatik güc formalaşdırır. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan, Türkiyə və Pakistan - üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Laçında keçirilən ikinci üçtərəfli Zirvə görüşü bir daha strateji əməkdaşlığımızı təsdiqlədi. 30 il ərzində işğal altında qalan Laçın şəhərində üç ölkə liderinin, özü də Azərbaycanın müstəqillik günündə bir araya gəlməsi böyük rəmzi məna daşıyır. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Türkiyə və Pakistanın dəstəyi Azərbaycan dövlətinə, ordusuna, xalqımıza ruh yüksəkliyi, güc verdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə Azərbaycan hər zaman qardaş ölkələrin rəhbərlərinə, xalqlarına minnətdardır.

Azərbaycan azad edilmiş torpaqlarda bərpa-quruculuq işləri həyata keçirir. Üç hava limanı ilə yanaşı yeni sosial, iqtisadi və mədəni təyinatlı infrastruktur obyektləri tikilib, bərpa olunan enerji ilə bağlı SES-ləri istismara verilib, nəqliyyat-logistika layihələri davam etdirilir, 70 kilometrə yaxın tunelin inşası sürətlə gedir. Bu gün Şərqi Zəngəzur və Qarabağ bölgələrində 43 min insan yaşayır və çalışır. Dünya artıq Azərbaycanın yaratdığı reallıqlarla barışıb. Laçında hava limanının istifadəyə verilməsi Şərqi Zəngəzurun iqtisadi həyatında canlanma yaradacaq. Bura Qafqazın həm qış, həm də yay mövsümləri üçün səciyyəvi xüsusiyyətləri olan turizm bölgəsidir. Yaxın gələcəkdə bura çoxlu sayda turistin gələcəyini proqnozlaşdırmaq olar. Laçından verilən mesajlar Zəngəzurdan Orta Asiyaya, Kəşmirdən Aralıq dənizinə, İstanbuldan Budapeştə qədər uzanan geniş bir coğrafiyada yeni bir güc mərkəzinin yarandığına işarədir.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**